# XIII – XIV ƏSRLƏRDƏ AZƏRBAYCANDA İDARƏÇİLİK MÜNASİBƏTLƏRİ VƏ DÜNYƏVİ QANUNVERİCİLİYİN İNKİŞAFINDA N.TUSİNİN DÖVLƏT VƏ HÜQUQ HAQQINDA KONSEPSİYASININ ROLU

**M.N.SEYİDOV**
*AMEA-nın Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu*
*miraferin seyidov@mail.ru*

*Oxucuların diqqətinə təqdim olunan məqalə dahi Azərbaycan mütəfəkkiri və alimi, ictimai və dövlət xadimi Nəsirəddin Tusinin dövlət, hüquq, qanunvericilik, cəmiyyət və şəxsiyyət haqqındakı siyasi-hüquqi görüşlərinə həsr olunmuşdur. Müəllifin fikrincə, N. Tusi Şərqin ilk professional dövlət nəzəriyyəçisidir. Tusinin siyasi-hüquqi görüşləri XIII-XIV əsrlərdə Azərbaycan dövlətçiliyinin və qanunvericiliyinin formalaşmasında və inkişafında müstəsna rol oynamışdır. Məqalədə mütəfəkkirin dövlət, cəmiyyət, onun formaları, qanun və qanunçuluq haqında görüşləri araşdırılır. Eyni zamanda Tusinin siyasi idealı, ədalətli hökmdar, maarifçi monarxiya barədə düşüncələri də müəllif tərəfindən analiz edilir. Məqalədə əsas diqqət Tusinin qanunun aliliyi, hökmdarın və onun təbəələrinin hüquqları, ədalətli cəmiyyət haqqında fikirlərinə yönəldilmişdir.*

XIII – XIV əsrlərdə müsəlman hüququ Azərbaycanda hüququn əsas mənbəyi kimi çıxış edirdi. Bu dövrdə müsəlman hüququnun ayrı-ayrı sahələri öz inkişafını davam etdirir, dövlətin idarə olunması, hüquq və qanunvericilik sahələrinə ciddi təsir göstərirdi. Azərbaycan fəqihləri fiqhin normalarını özündə cəmləşdirən yeni qanun topluları, fiqh əsərləri, hüququn və qanunvericiliyin bu və ya digər məsələlərinin şərhini əks etdirən kitablar yazmışlar. Elxanilər dövlətinin əsas dayağı və paytaxtı Azərbaycan olması, ölkədə ictimai münasibətlərin sürətli inkişafına səbəb olmuş, bu da öz növbəsində ictimai münasibətlərin tənzimləyicisi olan müsəlman hüququnu Azərbaycan alimlərinin tədqiqat obyektinə çevirmiş, böyük fiqh əsərləri yaranmışdır.

Azərbaycanın siyasi və hüquqi fikir tarixində qanun və qanunçuluğa dair görüşlər artıq XIII-XIV əsrlərdə yeni məzmunda təzahür edirdi. Özünün humanist mahiyyətini XII əsrdən götürən qanun və qanunçuluqla bağlı ideyalar XIII-XIV əsrlərdə artıq orijinal bir istiqamət almaqla tamamilə yeni bir müstəvi üzərində inkişaf edirdi. XIII-XIV əsrlərdə Azərbaycan xalqının tarixində, cəmiyyətin və dövlətçiliyin, qanunvericiliyin inkişafında nəzərəçarpacaq irəliləyişlər müşahidə olunurdu (6, 183).

Müsəlman hüququ ilə yanaşı dünyəvi qanunvericilik də inkişaf edirdi. Dövlətin və onun idarəetmə orqanlarının təkmilləşməsi dünyəvi qanunvericiliyin inkişafını şərtləndirirdi. XIII əsrdə Azərbaycanda hakimiyyəti ələ keçirmiş Elxanilər mükəmməl dövlət aparatı yarada bilmişdilər. Yuxarıda qeyd edildiyi kimi, Elxanilər dövləti yarandıqdan sonra iki idarəetmə sistemi, yəni monqol dövlətinin idarəetmə sistemi ilə yerli dövlət idarə sistemi birləşdirildi. Məhz bu baza əsasında təkmilləşdirilmiş dövlət quruluşu formalaşdı.

Elxanilər dövlətinin nəinki ictimai və dövlət quruluşu, həm də hüququ və qanunvericilik fəaliyyəti özündən əvvəlki dövlətlərin ənənələrindən bəhrələnmişdi. Elxanilər dövlətində Çingiz xanın Yasasından istifadə etməklə dövlət hüququ, yerli idarəçilik sahəsində olan münasibətləri, monqol və türk feodalları arasında olan əmlak münasibətlərinin yarğu məhkəmələri vasitəsilə araşdırılması artıq qeyd olunmuşdur. Lakin hadisələrin gedişi göstərdi ki, getdikcə mürəkkəbləşən sosial – iqtisadi, hüquqi münasibətləri təkcə Yasa vasitəsilə tənzimləmək mümkün deyildir. Ölkəni işğal edən monqollar əsasən maddi nemətlərin talanması ilə məşğul olmuş, cəmiyyətin həyatı, ictimai münasibətlərin tənzimlənməsi qayğısına qalmamışdılar. Bu səbəbdən, Elxanilər dövlətinin mövcudluğunun ilk vaxtlarında dövlətin idarə edilməsi sahəsində müəyyən intizamsızlıq, başıpozuqluq olmuş, Yasa qanunlarının icra mexanizmləri olmadığından və bu qanunlar yerli müsəlman əhalisi tərəfindən qəbul edilmədiyindən qanunçuluğun qorunması və qanunvericilik sahəsində sistemsizlik hökm sürmüşdür. Belə vəziyyət isə Qazan xanın həyata keçirdiyi islahatlara qədər davam etmişdir.

Monqollar islamı qəbul etdikdən sonra vəziyyət kəskin surətdə dəyişdi. Qazan xanın islahatlarından sonra Elxanilər dövlətində artıq hökmdar fərmanlarının böyük əksəriyyəti müsəlman hüququnun normaları əsasında qəbul edilməyə başladı. XIII – XIV əsrlərdə Azərbaycanda hökmdarların verdiyi fərmanlar, mühüm dövlət vəzifələri tutan şəxslərin tərtib etdikləri qanunnamələr, traktatlar, təliqələr bu dövrdə hüquq və qanunvericiliyin öyrənilməsində mühüm rol oynayır. Bu fərmanlar və qanunnamələr hökmdar və dövlət hakimiyyətini təmsil edən şəxslər tərəfindən verildiyi üçün dünyəvi qanunvericilik sistemini təşkil edirdi.

Elxani hökmdarlarından Hülaku xanın və Abaqa xanın hakimiyyəti illərində dövlətin baş vəziri olmuş görkəmli Azərbaycan mütəfəkkiri Nəsirəddin Tusi «Əxlaqi – Nasiri»[1], «Maliyyə haqqında traktat» əsərlərində siyasət, hüquq, dövlətin idarə olunması məsələlərinə toxunmuşdur. O, dövrünün görkəmli tədqiqatçısı kimi cəmiyyətin ictimai-siyasi hadisələrini yaxından izləmiş, cəmiyyətlə insan və insanla cəmiyyət arasında gedən mübarizəni vəhdətdə şərh etmişdir (3, 71).

«Maliyyə haqqında traktat» əsəri Hülaku xanın göstərişi ilə yazılmışdı. Əsər bütünlüklə Elxanilər dövlətinin idarəetmə və maliyyə sisteminə həsr olunmuşdur. Həmin əsərində Nəsirəddin Tusi dövlətin əsasları mövzusuna müraciət edir, başqa xalqların və ölkələrin idarəçilik təcrübəsindən misallar gətirir. Onun fikrincə, «bütün padşahlıqların hakimiyyəti iki zəmin üzərində qurulmuşdur: 1) qılınc, 2) qələm. Qılınc ordunun əlində, qələm isə yazıçıların əlində olmalıdır. Orduda isə dörd əsas şərt olmalıdır:

Birinci şərt bundan ibarətdir ki, onlar bir-birləri ilə müttəfiq olmalıdırlar. İkincisi, onlar padşahla dilbir olmalı, üçüncüsü isə, yalnız padşahın fərmanı ilə iş görməlidirlər. Dördüncü şərt əsasən, onlar iş adamı olub, silah işlətməyi bacarmalıdırlar. Kimdə bu dörd şərt yoxdursa, orduya böyük ziyan vurmuş olar.

Padşah ordunu geyim, silah və yaxşı məvaciblə təmin etməlidir. Böyüyə böyük, kiçiyə kiçik qədər hörmət etməlidir. Əsgər və ya zabit öldükdə onların övladlarının qayğısına qalmalıdır».

Mütəfəkkirin fikrincə, qələm dörd zümrənin əlində olmalıdır: 1) Din əhli; 2) İncə elmlər, o cümlədən hikmət, nücum; 3) Tibb sahəsi üzrə alimlər, böyük və mühüm

[1] Bax: Rzayev A. Nəsirəddin Tusi. Bakı. 2001; Quliyev A. Nəsirəddin Tusi dövlət, siyasət və qanun haqqında. Bakı. 2001.

işlər görməklə məşğul olanlar, o cümlədən vəzirlər, müfəttişlər, ədliyyə işçiləri və padşahın sözlərini rəiyyətə və düşmənlərinə çatdıran katiblər; 4) ölkənin gəlir və xərclərini hesablayan maliyyə işçiləri (10, 208-210).

N. Tusinin əsərləri içərisində «Əxlaqi – Nasiri» əsərinin məzmunu ictimai, iqtisadi – siyasi, fəlsəfi və tərbiyəvi baxımdan, eyni zamanda dövrün feodal hüququnun mənbəyi nöqteyi – nəzərindən xüsusi əhəmiyyətə malikdir. Dövlət haqqında təlim Tusinin siyasi-hüquqi görüşlərində əsas qollardan birini təşkil edir. «Dövlət» anlayışına elmi münasibət, dövlətin mənşəyinin təhlili mütəfəkkirin siyasi konsepsiyasının mərkəzi xəttidir (7, 29).

Mütəfəkkir «Əxlaqi – Nasiri» əsərinin üçüncü məqaləsini «Ölkəni idarəetmə qaydaları» adlandırmışdır. Əsərin bu hissəsində dövlətin inzibati və iqtisadi funksiyalarının analitik təhlili verilir, dövlətin və siyasi idarəetmənin zəruriliyi konkret məntiqi əsaslarla sübut edilir. N.Tusinin dövlətin yaranması haqqında fikirləri də çox maraqlıdır. Mütəfəkkir güclü dövlətin bazasını ittifaqda görürdü: «Dövlətin bünövrəsi ittifaqdır. Bunun səbəbi odur ki, hər adamın gücü təklikdə az olur. Hamısı ittifaq bağlayıb çoxaldıqca onların qüvvələri ən azı hər bir adamın gücü qədər artır» (4, 293).

Geniş dünyagörüşünə malik olan Nəsirəddin Tusi qədim yunan filosoflarının əsərləri ilə tanış idi. Dövlət haqqında öz təlimini yaradarkən Tusi şübhəsiz ki, qədim yunan siyasi fikrinin ideyalarından bəhrələnmişdir. Bu da Tusinin «dövlət» anlayışına özünəməxsus yanaşma tərzini şərtləndirir. Hüquqşünas A.Rzayev haqlı olaraq qeyd edir ki, Nəsirəddin Tusi Azərbaycan siyasi fikir tarixində dövlətin birinci nəzəriyyəçisidir. Belə ki, ona qədər heç bir mütəfəkkir dövlət haqqında bu dərəcədə mükəmməl və müstəqil təlim yarada bilməmişdi (8, 21).

Nəsirəddin Tusinin siyasi idealı ədalətli, öz təbəələrin sevən hökmdarın rəhbərlik etdiyi bir dövlət cəmiyyət idi: «Şahın rəiyyətə məhəbbəti – ata məhəbbəti, rəiyyətin şaha məhəbbəti – övlad məhəbbəti, rəiyyətlərin bir-birinə məhəbbəti – qardaş məhəbbəti kimi olmalıdır; bu zaman onların arasında nizam olar. Bu təşbehdən məqsəd odur ki, şah: şəfəqqət, mərhəmət, lütf, kəramət, qayğı, tərbiyə, kömək, məsləhət, zərərli şeylərdən uzaqlaşdırmaq, xeyirliləri yaxınlaşdırmaq və bu kimi işlərdə rəiyyətlə mehriban ata kimi rəftar etsin» (4, 260).

Mütəfəkkirin fikrincə, dövlət insanların birliyi, ittifaqıdır. Heç kəs cəmiyyətdən kənar yaşaya bilməz. Fərdin mövcudluğu və inkişafı yalnız cəmiyyət daxilində mümkündür. İnsanları toplum halında birləşdirən bir siyasi təşkilat olan dövlət də məhz bu zərurətdən doğmuşdur. Tusi dövlətin mənəvi və maddi cəhətlər üzərində qurulduğunu göstərir. İnsanların qarşılıqlı sazişi əsasında yaranan dövlət mənəvi tələbatdan irəli gəlir. İnsanların bir-birinə yardımı isə dövlətə tələbatın maddi tərəfi kimi göstərilir. Tusi göstərir ki, dövlətin yaranmasının əsas səbəblərindən biri insanların qüvvəsinin bir yerə cəmləşdirmək zərurəti olmuşdur. Yəni, mütəfəkkir dövlətin ittifaq əsasında yaranması konsepsiyasına üstünlük verir. Onun fikrincə, ədalətli dövlət quruluşunun əsasında idarəetmə məharətinin hökmdar siyasəti ilə əlaqələndirilməsi durur ki, bu da öz növbəsində, qarşılıqlı yardıma və ittifaqa əsaslanır (8, 210). Dövlət haqqında siyasi konsepsiyasında Nəsirəddin Tusi dövlətin möhkəmliyi məsələsinə də ciddi diqqət yetirir. Onun fikrincə, dövlətin möhkəmliyi, sarsılmazlığı cəmiyyətdə hökm sürən nizam-intizamdan, qanunlara və ictimai davranış qaydalarına düzgün əməl olunmasından xeyli dərəcədə asılıdır. İnsanları birgə yaşamağa və fəaliyyət göstərməyə sövq edən amillər olmadıqda dövlət dağılmağa və parçalanmağa doğru gedir. Göründüyü kimi, mütəfəkkir «dövlət» və «cəmiyyət» anlayışlarını

eyniləşdirir. Onun fikrincə dövlət və cəmiyyət eyni substansiyalar olub, son nəticədə insanların birgə yaşamaya meylindən irəli gələn tarixi zərurətin məhsuludur.

Tusi dövlətin möhkəmliyində və uzun ömürlüyündə şəxsiyyətin mühüm rolunu görə bilmişdi. Onun əsərlərində şəxsiyyətin cəmiyyət və dövlət qarşısında vəzifələri müəyyən edilərək dəqiqləşdirilir. Şəxsiyyətin dövlət qarşısında əsas vəzifəsi kimi Tusi qanunlara və ictimai davranış qaydalarına əməl edilməsini, əxlaq normalarının qorunmasını, faydalı əməklə məşğul olmağı və vətəni qorumaq borcunu göstərir.

Tusinin fikrincə, dövlətin iki tipi daha çox yayılmışdır: xeyirxah dövlət və bədxah dövlət. Xeyirxah dövlət onun ideal dövlət tipinə uyğundur. Bu dövlətə adil və elmli hökmdar başçılıq edir ki, onun da əsas vəzifəsi təbəəliyində olan insanlara xoşbəxt və ləyaqətli həyat şəraiti yaratmaqdır. Belə dövlətdə hər bir insanın mənafeyi və maraqları nəzərə alınır, bütün əlaqələr qanunlarla nizamlanan, saf münasibətlər üzərində qurulur. Göründüyü kimi Tusi konkret bir dövlət formasının tərəfdarı kimi çıxış etmir, lakin daha çox maarifçi monarxiyaya üstünlük verir. Belə bir monarxiyada sosial ədalətin qorunması monarxın əsas vəzifəsi kimi müəyyən edilir.

Tusi dövləti idarə edən orqanları onun dayaqları kimi qiymətləndirir:

1. Qanunları tənzimləyənlər – müsəlman hüquqşünasları, poeziya, bəlağət elmi, xəttatlıqla məşğul olan mütəxəssislər;
2. Qanunların ədalətliliyinə və təbəələrin bərabərliyinə nəzarət edən orqanlar;
3. Dövləti qoruyanlar, mühafizə edənlər;
4. Dövlətin mövcud olmasının qayğısına qalan orqanlar (8, 25-26).

Əsərlərində dövlətin idarə olunması məsələlərinə geniş yer verən Tusi belə bir fikirlə razılaşır ki, «dövləti qüsursuz idarə etmək tarixən mümkün olmamışdır». Hər bir dövlətin öz səviyyəsinə və yerinə uyğun qayda-qanunları mövcuddur. Bu qanunların mühafizəsi üçün idarəetmədə nöqsanlara mümkün qədər yol verməməyə çalışmaq lazımdır. Bu səbəbdən dövləti idarə edən hökmdar laqeyd olmamalı, əhalisinin qayğısına qalmalı, vaxtını faydalı işlərə sərf etməlidir (1, 75). «Şah işləri özbaşına buraxarsa, dövlətin vəzifəsi xarablaşar, şər və zərər işə düşər, qayda-qanun tərsinə çevrilər, mənimsəmə qapıları açılar, tamahkarlıq qüvvələri ona kömək edər, bədbəxtlik xoşbəxtliyə qalib gələr, dostluq ədavətlə, nizam-intizam hərc-mərcliklə yerini dəyişər, hər şeyi yenidən başlamağa, haqqı bərpa edəcək bir imama ya ədalətli bir hökmdara ehtiyac hiss edilər» (4, 215).

Tusi Şərq fəlsəfə ənənələrini dərindən tədqiq edərək belə bir fikrə gəlmişdi ki, «rəiyyəti yalnız ədalət, fəzilət və hikmət qanunları əsasında idarə etmək lazımdır». Dövlətin möhkəmliyi şaha, şahın möhkəmliyi siyasətə, siyasətin möhkəmliyi isə hikmətə bağlıdır (4, 300). Onun fikrincə, müdrik adamların rəhbərliyi xalqın mənafeyinin yüksəlməsinə xidmət edir: «Hər dövrdə, hər zamanda hökmdara ehtiyac yoxdur. Əhali arasında nizam-intizam olsa, bu onlara uzun müddət bəsdir. Lakin bütün dövrlərdə müdrik bir rəhbərə və tədbir sahiblərinə ehtiyac vardır. Tədbir olmasa nizam-intizam aradan qalxar, insan cəmiyyəti lazım olduğu kimi inkişaf etməz…» (5, 156).

Nəsirəddin Tusinin özünəməxsus hüquq konsepsiyası da vardır. Mütəfəkkir qanuna insan təfəkkürünün məhsulu kimi baxır, onu insanların qərarları əsasında yarandığını iddia edir: «camaatın qərarı əsasında yaranan və qərarı olanlardan biri də qayda-qanunlardır» (5, 38). Qanunun ilahi mənşəyini bir tərəfə qoyaraq, onun insanın kamillik qüdrəti sayəsində yarandığını iddia edən mütəfəkkir öz dövrü üçün çox cəsarətli bir addım atmış olurdu. Tusinin nəzəriyyəsində qanun təkcə qadağanlar və məcburetmə tədbiri olmayıb, bəraət normalarını da nəzərdə tutmalı, cəza vermək

məqsədindən daha çox tərbiyə, islah etmək məqsədi güdməlidir. Bu fikirlər təbii ki, mütəfəkkirin humanist mövqeyindən irəli gəlir. Mütəfəkkirin fikrincə, qanunun iki növu mövcuddur: ədalətli və ədalətsiz qanunlar. Qanunların ədalətli olması dövlət başçısının siyasəti, onun bir insan kimi təbiətindən asılıdır. Eyni zamanda Tusi qanunlara donmuş bir ehkam kimi baxmır, onların daim təzələnməyə və təkmilləşməyə ehtiyacı olduğunu qeyd edir.

Böyük mütəfəkkir öz əsərində cinayət hüququ məsələlərinə də toxunur. Mütəfəkkirə görə cinayətin törədilməsində təqsirin üç forması mövcuddur:

1. Cinayətin qəsdən törədilməsi;
2. Cinayətin qəsd olmadan törədilməsi;
3. Cinayətin ehtiyatsızlıq üzündən törədilməsi.

Mütəfəkkir cinayəti təhlükəli bir şər hərəkət kimi qiymətləndirir, cinayətlərin qarşısını almaq yollarını göstərir: «…adamların da dərəcələri vardır. İslah oluna bilənləri cəza və tənbehlə tərbiyə etmək lazımdır. İslahı mümkün olmayan, lakin başqalarına zərər yetirməyənləri bir növ yola verməli, başqalarını incidib əziyyət edənlərin isə qarşısı alınmalı, onların şəri aradan qaldırılmalıdır». Tusi cinayətkarların islah olunması üçün cəza tədbirlərini də göstərir: «Şərin aradan qaldırılmasının da dərəcələri vardır:

Birinci – həbs. Bu şəhər əhalisi ilə ünsiyyətdən məhrum etmək deməkdir.

İkinci – zəncir (məhdudiyyət). Bu, şəhərin təsərrüfat işlərindən onu məhrum etmək deməkdir.

Üçüncü – sürgün. Bu, şəhərə girməyə icazə verməməkdir» (4, 297-298).

Eyni zamanda mütəfəkkir ölüm cəzasının verilməsi məsələsini də təhlil edərək cəzanın bu növündə daha diqqətli olmağı məsləhət görür: «Əgər onun (cinayətkarın) şəri həddini aşsa, nəticəsi ölüm və fəsad olsa, hikmət sahibləri onun edam edilib – edilməməsi haqqında müxtəlif fikirlər söyləmişlər. Onların dediklərinin əsası bundan ibarətdir ki, belə halda edam etmək deyil, cinayət törətmiş üzvü, məsələn, əl, ayaq, dil və ya hiss üzvlərindən birini kəsmək daha məsləhətdir. Əlbəttə, edam etməyə can atmaq lazım deyildir. Çünki o cəlal və haqq sahibi böyük yaradanın min hikmətlə tikdiyi binanı uçurmaq və onun təmir edilib, tərbiyə ediləcəyinə inanmaq ağlasığan bir şey deyildir» (4, 298). Göründüyü kimi, N.Tusi ilahi ədaləti ən yüksək ədalət hesab edirdi. Onun fikrincə, insana ədalət ruhunu Allah verir. Ədalətin qüdrəti nəticəsində insan nəfsi ilahi nəfsə yaxınlaşır, insan bunun təsiri altında kamilləşir, müsbət fəaliyyəti qüvvətlənir (9, 127). Cinayət və cəza məsələlərinə xüsusi diqqət verən mütəfəkkir ölüm cəzasına rəğmən cismani cəzaların tətbiq edilməsinin məqsədə uyğunluğunu göstərir, həddən artıq zorakılığı inkar edirdi ki, bu da onun humanizmindən irəli gəlirdi.

N.Tusi «Maliyyə haqqında traktat» əsərində mövcud maliyyə və vergi sistemində islahatlar aparılmasının zəruriliyini göstərir. Onun fikrincə, dövlətin maliyyə və vergi sistemi ilk növbədə istehsalçıların marağının canlanmasına xidmət etməli idi. Bu məqsədlə N.Tusi əhalidən alınacaq əsas vergi növlərini də müəyyən edir: əkinçilərdən xərac, tacirlərdən tamğa, heyvandarlardan məral vergisi və digər fəaliyyət növlərindən xəzinəyə daxil olan vəsaitlər. Adı çəkilən traktatda istehsal münasibətləri, torpaq sahibliyi formaları, əhali təbəqələrinin hüquqi vəziyyəti, xüsusilə də tacir və sənətkarlarla dövlət arasındakı qarşılıqlı münasibətlərlə bağlı çoxsaylı təkliflər öz əksini tapmışdır. Ehtimal olunur ki, Tusinin bu təklifləri onun ölümündən sonra (1274) Qazan xanın (1295-1304) həyata keçirdiyi islahatlarda nəzərə alınmışdır (2, 185).

**ƏDƏBİYYAT**

1. Eyvazov F. Dahi alim və filosof. Bakı: Elm, 1981, 215 s.
2. İsmayılov X. Azərbaycanın dövlət və hüquq tarixi. Bakı: Nurlan, 2006, 720 s.
3. Məlikova M., Bayramov E. Azərbaycanın siyasi – hüquqi nəzəriyyələr tarixi. Bakı: Maarif, 1984, 311 s.
4. Xacə Nəsirəddin Tusi. Əxlaqi – Nasiri. Bakı: Elm, 1980, 2002, 356 s.
5. Nəsirəddin Tusi. Əxlaqi – Nasiri. //fars dilində// Tehran: 1968. s.345
6. Quliyev A.İ. XII-XVI əsrlərdə Azərbaycanın siyasi-hüquqi fikrində qanun və qanunçuluq problemi. Bakı: Qanun, 2005, s.376
7. Quliyev A.İ. XIII əsrin sonu, XIV əsrin əvvəllərində Azərbaycanda siyasi-hüquqi təlimlər. Bakı: Qanun, 1993, 120 s.
8. Рзаев А. Насиреддин Туси /политико-правовые воззрения/. Баку: Элм, 1983, 230 с.
9. Rüstəmov Y. Sosial-siyasi və hüquqi təlimlər tarixi. Bakı: Təknur, 2007, 423 s.
10. Seyidov M.N. "Xacə Nəsirəddin Məhəmməd Tusi dövlət quruluşu və maliyyə sistemi barədə". Nəsirəddin Tusinin 800 illik yubileyinə həsr edilmiş Respublika elmi konfransının materialları. 2-3 aprel, Bakı: ABU, 2001, s. 206-209.

## РОЛЬ КОНЦЕПЦИИ Н.ТУСИ О ГОСУДАРСТВЕ И ПРАВЕ В РАЗВИТИИ УПРАВЛЕНЧЕСКИХ ОТНОШЕНИЙ И СВЕТСКОГО ЗАКОНОДАТЕЛЬСТВА В АЗЕРБАЙДЖАНЕ В XIII-XIV ВВ.

**М.Н.СЕИДОВ**

**РЕЗЮМЕ**

Данная статья посвящена идеям и воззрениям великого азербайджанского мыслителя Насиреддина Туси о государстве и праве. По мнению автора, политико-правовые мысли мыслителя сыграли значительную роль в формировании и развитии государственности и законодательства Азербайджана в XIII-XIV веках. В статье анализируются взгляды мыслителя на общество, государство и его формы, закон и законность, законодательство. Рассматривается политический идеал Н.Туси, его размышления о справедливом государе, просвещенной монархии. Основное внимание уделяется взглядам мыслителя о верховенстве закона, правам и обязанностям как государя, так и его подданных, рассматриваются мысли о справедливом обществе.

## THE ROLE OF N.TUSI`S CONCEPT ABOUT STATE AND LAW IN THE DEVELOPMENT OF ADMINISTRATIVE REQULATIONS AND SECULAR LEGISLATION IN XIII-XIV CENTURIES IN AZERBAIJAN

**M.N.SEYIDOV**

**SUMMARY**

The article is dedicated to the ideas and outlooks of the great Azerbaijani thinker Nasiraddin Tusi about the state and law. In the author's judgment the thinker's political-legal thoughts played a great role in the formation and development of the statehood and legislation of Azerbaijan in XIII-XIV centuries. The article analyzes the thinker's thoughts about society, state and its forms, law and legality, and the legislation. It also describes Nasiraddin Tusi's political ideal, his thoughts about the fair sovereign and enlightened monarchy. The author focuses on the thinker's thoughts about supremacy of law, rights and obligations of the state and citizens, and studies the ideas about the fair society in the article.